Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Böyükləri düşündürən, uşaqları sevindirən
# Mir Mehdi Seyidzadə

**Mir Mehdi Seyidzadənin 115 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2022**

**Tərtibçi:** **Ruhiyyə Məmmədli**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət işçisi*

**Böyükləri düşündürən, uşaqları sevindirən yazıçı - Mir Mehdi Seyidzadənin 115 illik yubileyi münasibətilə** mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / tərt.ed.: R.Məmmədli; ix. red. və burax. məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2022.-40s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2022**

## Tərtibçidən

Uşaq yazıçısı olmaq çox çətin, məsuliyyətli, həm də şərəflidir. Uşaq psixologiyasının incəliklərini duymaq, uşaqlara həqiqəti deməyi bacarmaq və uşaqları qəlbən sevindirib razı sala bilmək qabiliyyəti hər kəsə müyəssər olmur. Bu çox nadir bir istedaddır ki, doğruluğu, məsumluğu və səmimiyyəti, bütün varlığı ilə yaşayan azyaşlı vətəndaşlara həyatın gözəlliklərini, insanların əməlini, mübarizəsini və xarakterini sevdirə biləsən, onları təsirləndirməyi bacarasan və elə edəsən ki, uşaqlar deyilənləri heç zaman yaddan çıxarmasınlar, daim gözəllik və həqiqət haqqındakı anlayışlarında səhv etmədiklərinə bir dəfəlik inansınlar. Bu xüsusiyyətlər istedadlı şair-dramaturq, hamımızın rəğbət bəslədiyi bu il 115 yaşını qeyd etdiyimiz Mir Mehdi Seyidzadənin qələmində vardır. Şairin özü ruhən, şeirləri isə məzmun və mənaca həmişə cavandır. Şair yaradıcılığı boyu uşaqları ılıq hissləri və təmiz fikirləri, böyükləri alovlu eşqi və şirin qəzəlləri ilə sevindirmişdir. Uşaq qəlbi qədər təmiz, kövrək və həssas olan şairin yaradıcığı gənc nəslin tərbiyə edilməsində həmişə mühüm rol oynayır. Mir Mehdi Seyidzadənin adı, əsərləri və şəxsiyyəti xalq arasında, gənc və yaşlı oxucular içərisində ehtiramla xatırlanır, məhəbbətlə yad edilir və sevilir. "Uşaq qəlbi qədər təmiz, kövrək və həssas şairimiz Mir Mehdi Seyidzadə" adlanan metodik vəsait şairin 115 illik yubileyi münasibətilə, oxucuların dəyərli şairimiz haqqında olan məlumatlarını artırmaq məqsədilə yazılmışdır. Vəsaitin I hissəsində Mir Mehdi Seyidzadənin həyat və yaradıcılığından söhbət açılır, ikinci hissədə isə kitabxanalarda keçirilən tədbirlərdən bəhs olunur.

## Həyat və yaradıcılığı

Azərbaycan şairi, dramaturq Mir Mehdi Seyidzadə 1907-ci il noyabr ayının 11-də Türkmənistanın Aşqabad şəhərində dənizçi ailəsində anadan olmuşdur. İbtidai təhsilini İranda Məşhəd şəhərində almış, 1920-ci ildə ailəsi ilə birlikdə Bakıya köçmüşdür. O, 1921-1925-ci illərdə Pedoqoji Texnikumda təhsil almışdır. Ədəbi yaradıcılığa 1925-ci ildə "Şərq qadını" jurnalında çap etdirdiyi "Kənd qızı" adlı ilk şeiri ilə başlamışdır. Şair 1926-1930-cu illərdə Qubadlı və Şəmkir rayon komitələrində bir il işlədikdən sonra, 1926-1930-cu illər arası Bakıda Çaparidze adına kitabxananın müdiri vəzifəsində işləmiş, 1932-1939-cu illərdə Azərbaycan Pedoqoji İnstitutunun qiyabi şöbəsində iki il təhsil almış və eyni zamanda Azərnəşrdə redaktor və şöbə müdiri vəzifələrində çalışmışdır. 1938-1939-cu illərdə isə yenidən təşkil olunmuş "Uşaqgəncnəşr"də bədii ədbiyyat şöbəsinə rəhbərlik etmişdir. 1941-1942-ci illərdə İranda "Qızıl əsgər" qəzeti redaksiyasında xüsusi müxbir işləmişdir. Xəstəliyinə görə ordudan tərxis olunmuş, Bakıda Azərbaycan Radio Verilişləri Komitəsində məsul redaktor, bir ildən sonra 1944-cü ildə "Azərnəşr"də şöbə müdiri olmuşdur. 1944-1946-cı illərdə "Uşaqgəncnəşr"in baş redaktoru vəzifəsində çalışmışdır.

1927-1929-cu illərdə müasir mövzuda uşaq şeir və nəğmələrini, "Zirək Səməd" mənzum nağılını, "Şanlı gün" poemasını yazmışdır. "Nərgiz" nağıl-poeması əsasında yazdığı nağıl-pyes Mir Mehdini bir dramaturq kimi tanıtmışdır. "Kiçik təyyarəçilər", "Neftə doğru", "Pinti Həsən", "Uşaq şeirləri" kitablarından "Nərgiz" əsərinədək yüksələn şairin həm məhsuldar, həm də keyfiyyətcə yeni dövrü başlamışdır. Nağıl-

pyes 1935-1936-cı illərdə Gənc Tamaşaçılar teatrının və Kukla teatrının səhnələrində müvəffəqiyyətlə oynanılmışdır. Bu nailiyyətlər şair-dramaturqu daha da ruhlandırmışdır. O, "Nərgiz"dən sonra bir-birinin ardınca "Təzə şəhər", "Pilotlar", "Eldar və Zaman", "Kiçik pyeslər" kitablarını çap etdirmişdir. "İsgəndər və çoban", "Meyvələrin bəhsi" və s. əsərləri isə rus və digər dillərə tərcümə edilərək yayılmışdır. Bu əsərlərin ardınca uşaqlar üçün "Sevgi" (1940), "Cırtdan", "Fitnə", "Sehrli saz" (1942-1943) və s. maraqlı nağıllar yazmışdır.

Mir Mehdi Seyidzadə Ömər Xəyyam, A.S.Puşkin, V.A.Jukovski, İ.A.Krılov və başqa ədiblərdən tərcümələr də etmişdir və zəngin yaradıcılığına görə dövlətimiz şairi fəxri fərman və medallarla təltif etmişdir.

Böyük Vətən müharibəsi başlananda Mir Mehdi Seyidzadə artıq görkəmli bir şair kimi məşhur idi. Müharibə illərində bu şöhrət daha da artmışdır. O, qələmini süngüyə çevirib, qələbəmizə köməklik göstərmiş, ölkəmiz üçün ağır olan günlərdə onun "Balaca döyüşçülər" (1941), "And", "Vətən qızı", "Qorxmaz", "Şanlı qəhrəman" (1942), "Bizim ellər" (1944), "Qəmər" (1945), "Maral" (1945) və s. şeirləri və kitabları nəşr olunmuşdur. Şairin 1945-ci ildə tamamlanmış "Zəfər" pyesi də oxucular tərəfindən rəğbətlə qarşılanmışdır. Gənclərimizin vətənpərvərlik ruhunda tərbiyələndirilməsində bu əsərlərin rolu böyük olmuşdur.

Şairin yaradıcılığında ən kamil və məhsuldar dövr müharibədən sonrakı illərə təsadüf edir. 1945-1957-ci illərdə şairin çoxlu kitabları – "Şah və xidmətçi" (1947), "Şeirləri" (1948), "Yaxşı yoldaş" (1949), "Çiçəklənən düzlər" (1950), "Bağçamız" (1953), "Yeni il hədiyyəsi" (1954), "Seçilmiş əsərləri" (1957) və s., həmçinin V.A.Jukovskidən tərcümə etdiyi

“Nağıllar və şeirlər” (1947) kitabı çap olunur. Uşaq və gənclər üçün yazdığı - “Bahar”, “May bayramı”, “Oynaq topum, “Bənövşə”, “Laylay” və s. şeirlərinə musiqilər bəstələmişdir.

1964-cü ildə görkəmli sənətkarın “Şairin kitabxanası” seriyasından ilk kitabı çap edilir. Buraya müəllifin ən yaxşı şeirləri, uşaq əsərləri və nəğmələri, poemaları və dahi Azərbaycan şairi M.Füzulinin gəncliyinə həsr etdiyi “Şairin gəncliyi” adlı dram əsəri daxil edilmişdir.

Mir Mehdi Seyidzadə bədii yaradıcılıqla yanaşı, 1925-1976-cı illərdə vətəndaş ədib kimi dövri mətbuatda publisistik yazılar, resenziyalar, ədəbi-tənqidi məqalələrlə də çıxış etmişdir. Bu yazılarda günün vacib məsələlərindən, həmçinin şairin qələm dostlarından, ayrı-ayrı ədəbiyyatçılarımızın yaradıcılığından bəhs edilirdi.

Mir Mehdi Seyidzadə 31 avqust 1976-cı ildə Bakıda vəfat etmişdir. 1991-ci ildə Nazirlər kabinetinin Qərarı ilə keçmiş Belinski adına kitabxanaya görkəmli uşaq şairi Mir Mehdi Seyidzadənin adı verilmişdir.

## Yubiley tədbirlərinin keçirilməsi

Bu il noyabr ayının 11-də xalqımızın sevimlisi, körpələrin qəlbinə yol tapan, uşaq və gənclərin şeirlərini sevə-sevə öyrəndikləri görkəmli şair-dramaturq Mir Mehdi Seyidzadənin anadan olmasının 115 ili tamam olur. Bu münasibətlə bir çox təhsil ocaqlarında, kitabxanalarda yubiley tədbirləri keçirilməsi nəzərdə tutulmuşdur.

Kitabxanalarda bununla əlaqədar maraqlı tədbirlər keçirmək olar. Bu tədbirlər arasında sərgilər mühüm yer tutur. Sərgidə şairin kitabları, müxtəlif mətbuat səhifələrində onun

haqqında nəşr olunmuş məqalələr, onun fotoları nümayiş olunur. ***Sərgini müxtəlif başlıqlarla adlandıra bilərik. Məsələn:*** "Uşaqları sevindirən, böyükləri düşündürən şair ...", "Mir Mehdi Seyidzadə-115 il bizimlə", "Gəncliyin ağ saçlı şairi", "Həmişə cavan şair", "Uşaqların sevimlisi", "Şərəflə yaşanmış ömür", "Bahar şairi", "Mən şeyda bülbüləm, məftunam gülə", "Ellər bizi unutmaz, xatırlayar həmişə, Mir Mehdi, qalsa bizdən yadigarı ömrün", "Uşaq qəlbi qədər təmiz, kövrək və həssas olan Mir Mehdi Seyidzadə" və s. Sərginin təşkili zamanı görkəmli şəxslərin şair haqqında dedikləri kəlamlardan da istifadə etmək olar.

## Görkəmli şəxsiyyətlərin Mir Mehdi Seyidzadə haqqında söylədikləri fikirlər:

Mir Mehdi Seyidzadə – bizim ağa başdan ayağa mənəviyyat mücəssiməsidir.

**Süleyman Rəhimov,**
*Xalq yazıçısı*

Uşaqlar üçün yazmaq çətin, məsuliyyətli, həm də şərəflidir. Uşaq psixologiyasının incəliklərini duymaq, uşaqlara həqiqəti deməyi bacarmaq və onları razı sala bilmək üçün xüsusi istedad lazımdır. Mir Mehdi Seyidzadə də bu xüsusiyyət vardır.

**Xalidə Hasilova,**
*Əməkdar Mədəniyyət İşçisi*

Bizim həm təbiətimiz bir-birinə uyğun olmuş, həm də seçdiyimiz sənət.

**Abdulla Şaiq,**
*Əməkdar incəsənət xadimi*











Bibli oqrafik göst əricinin hazırlanmasının olduqca çətin və məsuliyyətli bir iş olmasını mütəxəssislər çox yaxşı bilirlər. Ancaq bu tipli kitabların araya ərsəyə gətirilməsinin faydası o qədər böyükdür ki, məhz bunu nəzərə alıb əziyyətə qatlaşmağa dəyər. F.Köçərli adına Respublika Uşaq Kitabxanasının təşəbbüsü ilə hazırlanan silsilə biblioqrafiya kitabları sənətkarların həyat və yaradıcılığını öyrənmək baxımından çox faydalıdır. Bu tipli əsərlərin meydana gəlməsi üçün təkcə zəhmət, axtarış, kifayət eləmir, həm peşəyə, həm də bibli oqrafiyası hazırlanan sənətkara məhəbbət çox vacib məsələdir.

Mir Mehdi Seyidzadə: biblioqrafiya /tərt. ed.: N.Tahirova, L.Qafarova, T.Əzizova; ixt. red. və burax. məsul.: Ş.Qəmbərova; red.: G.Səfərəliyeva; Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2017.- 304 s.

https://clb.az/arxiv2021/dosyalar/1713.pdf

Mir Mehdi Seyidzadənin anadan olmasının 110 illiyi münasibətilə F.B.Köçərli adına Respublika Uşaq Kitabxanasının əməkdaşları yazıçının yaradıcılığını tam halda işıqlandırmaq məqsədilə fundamental biblioqrafik vəsaitin tərtibinə qərar vermişdir. Ədibin ədəbi-ictimai fəaliyyətini tam şəkildə əks etdirən bu fundamental biblioqrafik göstərici 1925-2017-ci illərdə dərc olunan materialları əhatə edir. Göstərici dörd hissədən ibarətdir: I Hissə - Mir Mehdi Seyidzadənin əsərləri; II Hissə - Mir Mehdi Seyidzadə haqqında; III Hissə - Rus dilində; IV Hissə - Köməkçi göstəricilər. Göstəricidə həmçinin şairin Azərbaycan Respublikası Dövlət Mir Mehdi Seyidzadə 4 Ədəbiyyat və İncəsənət Arxivi idarəsində toplanan şəxsi arxiv materialları öz əksini tapmışdır. Biblioqrafiyada "Mir Mehdi Seyidzadənin müdrik deyimləri", "Mir Mehdi Seyidzadə görkəmli şəxsiyyətlər haqqında", "Görkəmli şəxsiyyətlər, elm və mədəniyyət xadimləri Mir Mehdi Seyidzadə haqqında" adlı bölmələrdə verilmiş materialların müxtəlif oxucu qruplarının marağına səbəb olacağı şübhəsizdir. Vəsaitdə materiallar bölmələr üzrə xronoloji ardıcıllıqla, daxildə isə əlifba sırasına uyğun olaraq qruplaşdırılmışdır. Biblioqrafiyadan istifadəni asanlaşdırmaq məqsədilə Mir Mehdi Seyidzadənin əsərlərinin və onun haqqında yazan müəlliflərin əlifba göstəricisi tərtib edilmişdir. Biblioqrafik vəsait geniş oxucu kütləsi – tələbələr, tədqiqatçı-alimlər, bütün ədəbiyyat həvəskarları üçün nəzərdə tutulmuşdur. Göstərici ədəbiyyatşünas alimlər, tədqiqatçılar, kitabxanaçı-biblioqraflar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Kitabxanalarda yuxarı sinif şagirdlərinin iştirakı ilə **“Gəncliyin ağ saçlı şairi”** adlı **oxucu konfransı** da təşkil etmək mümkündür. Konfransdan öncə onun proqramı tərtib olunmalı, konfransın keçiriləcəyi dəqiq vaxt müəyyən olunmalıdır. Proqramda konfransda çıxış edəcək qonaqların, ədəbiyyatşünasların və şagirdlərin adları, onların çıxış edəcəkləri mövzular, tədbirin keçiriləcəyi məkan və zaman qeyd olunur. Konfrans zamanı M.Seyidzadənin yaradıcılığına yaxından bələd olan jurnalist, yazıçı və şairlərin çıxışları dinlənilir.

Oxucu konfransının planını sizə təqdim edirik:

1. Giriş hissə (Mir Medi Seyidzadənin həyat və yaradıcılığı haqqında məruzə).
2. Mir Mehdi Seyidzadənin yaradıcılığı haqqında kitabxana rəhbərliyinin, jurnalist, yazıçı və şairlərin çıxışları.
3.Yuxarı sinif şagirdlərindən ibarət olan oxucuların Mir Mehdi Seyidzadənin müxtəlif əsərləri ətrafında müzakirələri. Şairin şeirləri, qəzəlləri söylənilir.
4. Konfransın yekunu.

Mir Mehdi Seyidzadənin 115 illik yubileyi münasibətilə kitabxanada respublikanın ümumi təhsil məktəblərinin şagirdləri arasında “Uşaqları sevindirən, böyükləri düşündürən Mir Mehdi Seyidzadə haqqında düşüncələrim” mövzusunda **inşa yazı müsabiqəsi** təşkil etmək olar. Bu məqsədlə kitabxananın girəcəyində keçiriləcək müsabiqənin elanı asılır. Orada tədbirin keçirilməsi ilə bağlı bütün şərtlər göstərilir. Müsabiqəyə hazırlıq məqsədilə bir həftə əvvəldən məktəblilər

şairin həyat və yaradıcılığından bəhs edən kitabları oxuyub, bilgi toplayırlar. Müsabiqə təyin olunmuş vaxtda keçirilir. Müsabiqənin qalibləri kitabxananın müdriyyəti tərəfindən mükafatlandırılır. Müsabiqədə tədbirlə bağlı məlumatlar uşaq qəzetlərində, radio verilişlərində verilərsə daha yaxşı olar.

Dəyərli şairimiz Mir Mehdi Seyidzadənin 115 illik yubileyi münasibətilə kitabxanada oxucular arasında **şeir müsabiqəsi** təşkil etmək olar. Müsabiqənin münsiflər heyyətinə tanınmış ədbiyyat müəllimləri, incəsənət adamları, aktyorlar dəvət olunur. Müsabiqə zamanı yuxarı sinif şagirdləri şairin qəzəllərini, aşağı sinif şagirdləri isə şairin uşaqlar üçün qələmə aldığı şeirləri səsləndirirlər. Şeiri ən yaxşı intonasiya ilə səsləndirən oxucu kitabxananın müdiriyyəti tərəfindən mükafatlandırılır. Şeirlərdən bir neçəsini sizə təqdim edirik.

**Lalə**

Qonağısan yaylağın,
Hər çəmənin, hər bağın.
Alov kimi yanırsan,
Xallı olur yanağın.
Adındır bahar qızı,
Donun olur qırmızı.
Açanda bəzəyirsən
Sevimli yurdumuzu.

**Bahar nəğməsi**

Bir quş uçdu bizim bağa,
Səhər-səhər oxumağa.
Qondu yaşıl bir budağa,
Dedi: - Gözəl bahar gəlir!
Günəş güldü, əridi qar,
Çiçəkləndi hər dağ, meşə,
Qızıl lalə qondu döşə,
Pıçıldayıb göy bənövşə
Dedi: - Gözəl bahar gəlir!
Çoban qalxdı bir yaylağa,
Sürüsünü yaydı dağa,
Baxdı sola, baxdı sağa,
Dedi: - Gözəl bahar gəlir!
Tütəklərin incə səsi,
Kəkliklərin şən nəğməsi,
Bulaqların zümzüməsi,
Dedi: - Gözəl bahar gəlir!
Uçan bulud, çaxan şimşək,
Yağan yağış, əsən külək,
Təbiəti duyan ürək,

Dedi: - Gözəl bahar gəlir!
Yerdən göyə qalxdı buxar.
Coşan sellər, daşan çaylar,
Dedi: - Gözəl bahar gəlir!

**Darğa qarğa**

Adlı-sanlı hökmran,
Əmr edib dedi:- Qarğa,
Edirəm səni darğa!
Yaşıl meşədə, bağda,
Çəmənlikdə, yaylaqda,
İradənlə, hökmünlə,
Nə istəyirsən elə!
Qarğa yaman sevindi,
Düşünüb dedi:-İndi
Var məndə böyük qüdrət,
Əlimə keçib fürsət,
Gərək nəğməkar quşlar,
Bülbüllər, qaranquşlar,
Gəlib yaşıl bağlarda,
Oxumasın baharda.
Hər tərəfdə qarğalar

Qışqırıb desin qar, qar.
El zövq alsın səsindən.
Qarğa vəzifəsindən,
Olub elə bədgüman,
Lap çıxmışdı yadından
Onun miskin qarğalıq.
Edən zaman darğalıq,
Oldu başqa həvəsdə...
Qondu bir gün leş üstə.
Göydən elə bu zaman
Şığıyıb gəldi tərlan.
Qarğa saymadı onu,
Pis oldu işin sonu,
Tərlan bərk acıqlandı.
Qəzəbdən qəlbi yandı,
Elə vurdu qarğanı,
Çıxdı lovğanın canı.

**Lovğa çıraq**

Çıraq gecə yanırdı,
Yaman loğvalanırdı.
Deyirlər:-Yaraşığım
Könül açan işığım,

Yayılıbdır dünyaya,
Dəyər Günəşə, Aya...
Açıldı aydın səhər,
Parıldadı şəfəqlər,
Göydə al Günəş yandı,
Yer üzü işıqlandı.
Yüz rəng aldı çiçəklər,
Uçuşdu kəpənəklər.
İşıqlandı hər otaq.
Ölgün görünüb çıraq.
Söndü bütün nəfəsi,
İtdi, getdi şöləsi.

**Duman**

Duman tutdu dağları,
Səfalı yaylaqları.
Görünmədi dərələr,
Çiçəkli mənzərələr.
Tutdu hər yanı külək,
Qovdu dumanı külək.
Qalmadı onun izi,
Açıldı göyün üzü.

Mir Mehdi Seyidzadənin yaradıcılığını oxuculara dolğun şəkildə çatdırmaq üçün kitabxanada sərgi ətrafında **oxucularla söhbət** təşkil etmək olar. Söhbətin gözəl keçməsi üçün kitabxanaçı Mir Mehdi Seyidzadənin yaradıcılığı haqqında ətraflı məlumat toplamalıdır.

**Kitabxanaçı:**Mir Mehdi Seyidzadənin gözəl şeirləri və pyesləri ilə böyüməkdə olan nəsildə yüksək ideyalar, nəcib hisslər aşılayan şair ədəbiyyatımızın görkəmli nümayəndələrindəndir. Şair öz oxucularını, pərəstişkarlarını və mənəvi dostlarını tapana qədər çox uzun, mənalı və məzmunlu bir yol keçmişdir. Bu yol öz başlanğıcını uşaqlıq illərinin təmiz romantikasından götürmüş və sonralardan iki istiqamətə ayrılmışdır; birincisi, gənclərin saf eşqini və yüksək əxlaqi-mənəvi sifətlərini tərənnüm edən lirik şairin yolu, ikincisi, yaşlıları müdrik fikirlər və gözəl hisslərlə düşündürüb təsirləndirən qocaman bir sənətkarın yolu. Şairin amalı, məqsədi və yaradıcılıq yolunun məna və istiqaməti həmişə aydın olmuş, irəliyə, yüksəkliyə və bədii bitkinliyə doğru tərəqqi etmişdir. Əsərlərində Mir Mehdi Seyidzadə uşaq psixologiyasına, kiçik vətəndaşların mənəvi, ruhi aləminə bələd olan, gənclərin təlim-tərbiyəsinə və əxlaqi-estetik inkişafına təsir göstərən nəsihətçi pedaqoq, şair və geniş oxucu kütləsini, xalqı düşündürən əhəmiyyətli ictimai məsələləri əks etdirən sənətkar kimi nəzərimizdə canlanır. Müəllifin müxtəlif illərdə yazdığı "Xatırlayarsan məni", "Qələm", "Sənubər və sarmaşıq", "Bıçaq", "Səhər" şeirləri, "Elindir", "Bənzədirəm", "Kamalından danış", "Fərağın atəşinə", "Gün gələr torpaq olarsan", "Bir gözələ yüz qəzəl" qəzəlləri, "Səbayel gözəli", "Ceyran" və "Nərgiz" poemaları, "Sehrli nar", "Üç alma", "Sirli çeşmə", "İsgəndər və çoban " mənzum nağılları, "Şairin gəncliyi", "Qorxmaz", "Cırtdan",

“Fitnə” və “Sehrli saz” pyesləri onu görkəmli uşaq yazıçısı kimi təqdir etmək, lirik şeirlərin dəyərli nümunələrini yaradan sənətkar olaraq başa düşmək və humanist, insanpərvər şair kimi tanımaq üçün zəngin təsəvvür verir. Mir Mehdi Seyidzadə lirik, həssas şair olaraq gözəlliyə incə insani hisslərə daha artıq bağlıdır. Gözəllik anlayışı şairin təsəvvüründə mücərrəd bir məfhum deyildir; Vətənin təbii mənzərələrində, təbiətin və fəsillərin hüsnündə, eyni zamanda insanların əməlində, əməyində və daxili mənəvi aləmində təzahür edən, nəzərə çarpan ülvi bir keyfiyyətdir.

Yasəmənlər açanda,
Bülbül bağa uçanda
Oxuyanda nəğməni
Xatırlayarsan məni !
Aşanda uca dağdan,
İçəndə gur bulaqdan,
Gəzəndə göy çəməni
Xatırlayarsan məni!..
Arzular çox, ömür az,
Mən olmayanda hər yaz,
Dolananda gülşəni
Xatırlayarsan məni!

*Kitabxanaçı Mir Mehdi Seyidzadənin şeirlərinə bəstələnmiş mahnılar haqqında məlumat verdikdən sonra oxucuları yubilyardan bəhs edən slayda baxmağa dəvət edir.*

**Kitabxanaçı:** Şairin Vətən, xalq və azadlıq kimi müqəddəs mövzulara münasibətində, təmiz və pak insan eşqini tərənnüm edən şeirlərində, həmçinin uşaqlar üçün yazdığı səmimi mahnılarında coşqun, həm də saf bir romantika duyulur. Bu romantikanın kökü həyata, torpağa bağlıdır, buna görə də təsirli və təravətlidir.

Ömür keçir, həyatın dənizi dərinləşir,
İrəliyə gedəndə dalğalarla əlləşir.
Adam var ki, ömrünü qayğısız vurur başa,
Bənzəyir dənizlərin dibində itən daşa.
Adam var ki, çalışır, mavi suları yarır,
Ümmanların dibindən parlaq inci çıxarır.

Mir Mehdi Seyidzadə yaşlılar və böyüklər üçün bir sıra dəyərli əsərlər yazan şair kimi tanınıb sevilməkdən ziyadə, müasir Azərbaycan ədəbiyyatında başlıca olaraq uşaq yazıçısı kimi məşhurdur. Müəllifin "Övlad məhəbbəti", "Qaranquşlar", "Gülməlidir", "Yaxşı yoldaş" və s. şeirləri, nağıl-pyesləri və poemaları, onun qüvvətli uşaq yazıçısı olaraq yaradıcılıq xüsusiyyətlərini, bədii imkanlarını və bu ədəbiyyata gətirmiş olduğu özünəməxsus yenilikləri bütünlükdə aşkara çıxarır. Şairin hər bir şeiri, mənzum nağılı ilə tanışlıq belə bir sənət incilərinin məhz Mirmehdi Seyidzadə kimi uşaq psixologiyasına, uşaqların mənəvi dünyasının incəliklərinə dərindən bələd olan bir sənətkarın qələminə məxsus olmasından xəbər verir. Heç də hər bir şairə uşaqların sevimlisi olan uşaq şairi olmaq nəsib olmur. Şairinin kövrək uşaq qəlbinə asanlıqla yol tapan, siraət edən əsərlərində vətənpərvərlik, xeyirxahlıq, alicənablıq, dostluq, əməyə məhəbbət, təbiətə sevgi hissləri

duyulur. Bu ülvi, bəşəri hiss və duyğular şairin yaradıcılığının əsas aparıcı leytmotivini, qayə və məramını oxucuların diqqətinə çatdırır.

Yüksək istedad, coşqun ilham sahibi və poetik duyuma malik olan M.Seyidzadə təkcə uşaq şeirləri ilə kifayətlənməyib. Onu təkcə uşaq şairi kimi adlandırmaq düzgün olmazdı. Şairin müxtəlif janrlı şeirləri şəkilcə, mövzu və məzmun etibarı ilə fərqli olsa da, bu sənət incilərinin hər birində ustad sənətkarın hiss və həyəcanı, sevinc və kədəri, eşq – sevgi həvəsi, həssas qəlb çırpıntıları sözlərlə diqqət çəkir:

Mən şeyda bülbüləm, məftunam gülə,
Gülşən məskən olar şeyda bülbülə.
Vətən torpağında qalacaq daim,
Vücudum dönsə də bir ovuc külə.

Dövrdən, zamandan, quruluşdan asılı olmayaraq ədibin dərin məna çalarları ilə zəngin əsərləri hər zaman bəşərə, estetik və mənəvi tərbiyəyə, əxlaqa, inama, etibara, ülvi hiss və sevgiyə, nəzakətə və mehribanlığa, Vətənə, doğma torpağına, təbiətə və Cəmiyyətə, ailə - məktəb vəhdətinə, doğma dilinə bağlılığı ən dəyərli ismarıc bir vasitə olmuşdur desəm, yəqin ki, yanılmaram:

Mənə həyat verən yurdum, elimdir,
Vətən candan şirin bir sevgilimdir.
Ölməz Füzulini, böyük Sabiri
Yetirən Vətənim, ana dilimdir.

Azərbaycan uşaq ədəbiyyatının yaradıcılarından olmaq etibarı ilə şair uşaqlara – özünün müdrik və məsum oxucularına üç mühüm fikri, məsələni təlqin etməyə çalışır. Birincisi, həyatda namusla yaşamaq, doğruçu olmaq və dosta, yoldaşa dar gündə, çətin zamanda köməklik göstərmək. İkincisi, öz qəlbində müqəddəs duyğulara yol vermək, cəmiyyət, xalq və Vətən üçün yararlı vətəndaş kimi böyümək. Üçüncüsü isə, zülmə, xəyanətə və şər qüvvələrə qarşı mübarizə aparmaq, gözəllik və paklığın qələbə çalması uğrunda çarpışmaq. Müəllif bu qəbildən olan fikirlərini, arzularını əyani şəkildə şərh etmişdir. Çox az hallarda isə nəsihətamiz şəkildə, didaktə üsulu ilə öz fikirlərini bildirmişdir. Bu səbəbdən də şairin oxucuları onun təsvir etdiyi qəhrəmanların, müsbət surətlərin ədalətsizlik, pislik və zülm üzərindəki qələbəsinə inanırlar, bu qəhrəmanları hiss edir, görür və sevirlər. Mir Mehdi Seyidzadənin uşaq ədəbiyyatı sahəsindəki xidmətlərindən biri də onun bir sənətkar olaraq öz mövzularını qaynar və tükənməz bir çeşmədən, xalq ədəbiyyatı nümunələrindən götürməsidir ki, bu da şairin əsərlərinə bir təbiilik, bədii aydınlıq və şirinlik gətirmişdir.

Şair uşaqları ilıq hissləri və təmiz fikirləri, böyükləri alovlu eşqi və şirin qəzəlləri ilə sevindirmişdir.

Bəli, bir vaxtlar orta məktəb dərsliklərində şeirlərini oxuduğumuz, əzbərlədiyimiz gözəl uşaq şairi. 30-cu, 40-cı, 50-ci, 60-cı, 70-ci illərin uşaqları onun şeirlərini əzbərləyə-əzbərləyə bağçaya, məktəbə gediblər, Vətəni seviblər, təbiəti qoruyublar, ata-ana qədri biliblər. İndi də məktəb dərsliklərində Mir Mehdi Seyidzadənin şeirləri ilə qarşılaşırıq. Deməli onu sevirlər. Uşaq qəlbi qədər təmiz, kövrək və həssas olan Mir Mehdi Seyidzadənin yaradıcılığı gənc nəslin tərbiyə edilməsində həmişə mühüm rol oynayacaqdır.

Həmçinin balaca oxucularımız üçün M.Seyidzadənin "Bulaq və Dəniz", "Yeddi qardaş", "Yay", "Nənə və nəvə", "Quşcuğaz", "Ağacların şikayəti", "Bənövşə" və s. şeirlərin ifadəli oxunuşunu təşkil etmək olar. İfadəli oxudan sonra kitabxanaçı oxuculara bu şeirlərin məzmunundan bəhs edən suallar verə bilər. Bunu etməklə kitabxanaçı uşaqların nə dərəcədə diqqətcil olmalarını, şeirləri qavrama qabiliyyətlərini yoxlaya bilər. Məsələn: kitabxanaçı oxuculara müraciət edib, deyir:

**Sual:** Uşaqlar, Mir Mehdi Seyidzadə hansı şeir və hekayələrin müəllifidir?

**Cavab:** "Yeddi qardaş", "Bənövşə", "Nənə və nəvə", "Quşcuğaz", "Bulaq və Dəniz", "Gün çıx", "Ağacların şikayəti" və s.

**Sual:** "Ağacların şikayəti" şeirində bağçalar nədən şikayətlənirlər ?

**Cavab:** "Ağacların şikayəti" şeirində bağçalar uşaqların özlərini pis aparmalarından, ağacları sındırdıqlarından, gülləri kobudcasına dərməklərindən şikayətlənirlər.

**Sual:** "Bulaq və Dəniz" şeirində Dənizlə Bulaq arasında nə baş verir ?

**Cavab**: "Bulaq və Dəniz" şeirində Bulağın damlası Dənizə düşdüyünə görə Dəniz çox qəzəblənir. Bulaqsa ona cavabında çox öyünməməyi məsləhət görür. Bulaq Dənizə belə söyləyir: Əgər, axar sular olmasa dənizlər quruyar.

**Sual:** Uşaqlar "Quşcuğaz" şeirindən özünüzə nə nəticə çıxartdınız ?

**Cavab:** Bütün canlılar kimi quşları da qorumalıyıq. Hardasa yaralı quş gördüyümüz zaman ona yardım etməliyik.

Sual-cavabdan sonra kitabxanaçı uşaqlara təbiəti, ağacları, gülləri qorumağı, sevməyi tapşırır.

Kitabxanada kiçik yaşlı oxucular üçün səhərcik də təşkil etmək olar. Səhnəni nümayiş etdirəcəyimiz nağıla uyğun bəzəməliyik. Məsələn: dekorativ ağaclar, güllər, təpəciklər, quşlar və s. İştirakçılar səhnə paltarlarını geyinirlər. Gəlin, "Cik-cik sərçəcik" nağılını səhnələşdirək:

**Aparıcı:**

Bir cik-cik Sərçə vardı,
Çəmənlərdə oynardı.
Uçub yaşıl bağlara
Qonardı budaqlara.
Uçmuşdu bir çəmənə,
Qızılgül budağına-
Qonanda ayağına
Batdı iti bir tikan,
Ayağından axdı qan.
Bir qarıya Sərçəcik
Yalvarıb dedi:

**Sərçə:**

Cik-cik,
Bir yaxşılıq et barı,
Tikanı çıxar, qarı.

**Aparıcı:**

Tez tikanı çıxartdı,
Qarı təndirə atdı.
Tikan təndirdə yandı,

Sərçəcik acıqlandı.

**Sərçə:**
Tikanı nədən,
Yandırdın təndirdə sən.
Ya tikanı ver mənə,
Ya bir çörək ver mənə.

**Qarı:**
Durma get!
A Sərçə, qudurma, get!

**Aparıcı:**
... Sərçə şığıdı birdən,
Çörəyi qapdı yerdən...
Bir çoban dag başında-
Sərin bulaq başında
Oturmuşdu, Sərçəcik
Yanaşıb dedi:

**Sərçə:**
Cik-cik,
Çörək çıxıb təndirdən,
Minnəti yox pendirdən.
Ala ye, çoban qardaş!
Ancaq qoyma Alabaş
Mənə yaxın dayansın
Ətrafıma dolansın.

*(Çoban çörəyi yedi.)*

**Sərçə:**
Ya çörəyi ver bu an!
Ya bir quzu ver, çoban!

**Çoban:**
Durma get!
A Sərçə, qudurma, get!

**Aparıcı:** Sərçə şığıdı birdən,
Quzunu qapdı yerdən...
Sərçə gəldi bir yerə
Gördü ki, "uzundərə"
Çalınır, böyük, kiçik
Oynayır edir cik-cik.

**Sərcə:** Kimindir bu toy-düyün?

**Qonaq:** Bu gün şah qızı gedir ərə,
Şadlıqdır ona görə.
Qonşu kənddən bir aşıq
Qıza olmuşdu aşiq.
İncə sazlı aşığa
Şah qızını vermədi,
"Tayım deyilsən" dedi.
Göz dağı çəkdi ona,
Qızını verdi xana.

**Sərçə:** Cik-cik,
Quzum olsa da kiçik,
Əti var qənddən şirin,
Kəsin, kabab bişirin.
*(Quzunu kabab edib yeyirlər.)*
Cik-cik,
Ya qaytarın quzumu,
Ya verin şah qızını.

**Darğa:** Durma get!
A Sərçə, qudurma, get!

**Aparıcı:** ... Sərçə şığıdı birdən,
Gəlini qapdı yerdən...
Çox kəndləri dolaşdı.
Sərçə gördü bir aşıq

Halı yaman qarışıq.
Çəmənlikdə saz çalır,
Qəmli səsi ucalır..

**Sərçə:** Cik-cik,
Aşıq, kədərlənmə gəl,
Budur sevdiyin gözəl.

**Aparıcı:** Gördü sevdiyi qızı,
Güldü aşığın üzü.
Sərçəni alqışladı,
Ona saz bağışladı.

*(Sərcə oxumağa başlayır.)*

**Sərçə:** Tikanı verdim, çörək aldım,
Dinginən, sazım, dinginən din!
Çörəyi verdim, quzu aldım,
Dinginən, sazım, dinginən din!
Quzunu verdim, gəlin aldım,
Dinginən, sazım, dinginən din!
Gəlini verdim, səni aldım,
Dinginən, sazım, dinginən din!

Mir Mehdi Seyidzadənin uşaq şeirləri ilə yanaşı maraqlı, mənalı təmsilləri də yaddaşlara həkk olunub. Uşaqlar bu təmsilləri sevə-sevə oxuyurlar. Kiçik yaşlı oxuculara bu təmsillər əsasında səhərciklər təqdim etmək olar. Məsələn, şairin "Tikan və qızılgül" təmsili əsasında səhərciyin hazırlanması uşaqlar üçün çox maraqlı olar. Aparıcının sözlərini kitabxanaçı, Tikanla Qızılgülün sözlərini isə oxucular söyləyə bilər. Təmsili təqdim edirik:

**Kitabxanaçı:** Tikan çox təəccüblə
Söylədi Qızılgülə

**Tikan:** Bir kolda bir budaqda
Yetişirik biz bağda
Bəs səbəb nədir ki, sən
Hamıya sevimlisən,
Məni sevməyir heç kəs?

**Qızılgül:** Deyil əbəs,
Bir yerdə olsaq da biz,
Ayrıdır xislətimiz.
Sən hər ələ batırsan,
İncidib qanadırsan.
Mən könül oxşayıram
Qəlblərdə yaşayıram.

Səhərcikdən sonra kitabxanaçı təmsilin mahiyyətini azyaşlı oxuculara başa salmalıdır. Kitabxanaçı onlara tövsiyyə etməlidir ki, insanın xasiyyəti, xisləti gözəl olarsa, hamı tərəfindən sevilər.

Kitabxanamızda keçirilən maraqlı tədbirlərdən biri də ədəbi-bədii gecələrdir. Ədəbi-bədii gecələrin keçilirməsi şairin həyat və yaradıcılığı ilə yaxından tanış olmağa imkan verir.

Bildiyimiz kimi ədəbi-bədii gecələr də müxtəlif adlar altında keçirilir. Məsələn: ”Uşaqları sevindirən, böyükləri düşündürən şair-Mir Mehdi Seyidzadə”, ”Körpələrin dili ilə”, “Uşaqlara nəsihət”, “Faydalı keçən ömür”, “Həmişə cavam şair” və s. Adından da məlum olduğu kimi ədəbi-dədii gecə 2 hissəyə bölünür. Tədbirin I hissəsində ədəbi mövzu, şair haqqında

aparıcı tərəfindən ətraflı məlumat verilməli, onun şeirlərindən söylənilməli, hekayələrin, məqalələrin məzmunu haqqında danışılmalıdır. Tədbirin II hissəsində Mir Mehdi Seyidzadənin əsərlərindən seçilmiş parçalar dialoq şəklində verilə bilər, kiçik yaşlı oxucularımız tərəfindən Mir Mehdi Seyidzadənin hər hansı bir hekayəsi səhnələşdirilib təqdim oluna bilər, iki və daha artıq böyük yaş qrup oxucu şairin qəzəllərindən söyləyə bilərlər.Ədəbi-bədii gecənin ssenarisini təqdim edirik:

**I Aparıcı:** Əziz oxucularımız, hörmətli qonaqlarımız! Bu gün istedadlı şair-dramaturq, hamımızın rəğbət bəslədiyi Mir Mehdi Seyidzadənin 115 illik yubileyidir. Bu münasibətlə sizi salamlayır və hazırladığımız ədəbi-bədii gecəni açıq elan edirik.

**II Aparıcı:** Şair yaradıcılığının çox hissəsini uşaq və gənclərimizə həsr etmişdir. Şairin özü ruhən, şeirləri isə məzmun və mənaca həmişə cavandır. Şair qocalsa da şeir qocalmaz deyirlər. Bu sözlər Mir Mehdi Seyidzadənin "Sevdi könül" şeirində öz əksini tapır.

Mənə cavanlığı xatırladır çəməndə bahar,
Təbiətim belədir ki, baharı sevdi könül.
Salır xəyalına fəcrin qızıl şəfəqlərini.
Odur ki,vəcdə gəlib laləzarı sevdi könül .
Bu qardaş elləri, Mir Mehdi, mən gəzin deyirəm,

Səadət eşqinə xoş rüzigarı sevdi könül!..

**I Aparıcı :** Mir Mehdi Seyidzadə ilk yaradıcılığına xalq ədəbiyyatı motivləri üzrə nağıl və poemalar yazmaqla başlamışdır. Folklorun daimi mövzusu olan Xeyir ilə Şərin mübarizəsi mövzusunu yeni məzmunla - əməkçilərin zalımlara qarşı mübarizəsi ilə əlaqələndirmiş, azadlıq və inqilab ideyalarını tərənnüm etmişdir. Elə bu baxımdan da onun ilk əsəri "Qoçaq Səməd" (1929) xalqın padşaha qarşı üsyanı və qələbəsi mövzusuna həsr olunmuşdur.

**II Aparıcı:** Şairin xalq ədəbiyyatı motivləri üzrə yazdığı nağıl-poemalardan biri də balacaların ən çox sevdiyi "Cırtdan" nağılıdır. O, Cırtdanın nağılını şeir dili ilə balaca oxuculara sevdirmişdir. Hörmətli qonaqlar, gəlin, uşaqların ifasında səhnələşdirilmiş "Cırtdan" nağılının bir parçasına tamaşa edək.

*(Səhnə müxtəlif dekorasiyalarla bəzədilir.Cırtdan, Div və 1 neçə uşaqlar səhnədə görünürlər.)*

**Div:**

Xoş görmüşük, uşaqlar,
Ay balaca qoçaqlar,
Buyurun, gəlin evə,
Dostunuz qara divə
Qonaq olun bu gecə.

**Cırtdan:**

Ay div baba, çox sag ol!
Heç yormayıb bizi yol.
Sən çıx get, rahat-rahat
Öz yerində uzan, yat!
Bu gecəni bir təhər
Burda qalarıq, səhər
Durub düşərik yola.

**Div:**

Yox, yox, heç olmaz, bala!
Borcum sizə hörmətdir,
Mənimçin nə zəhmətdir?
Ay gözümün işığı,
Evimin yaraşığı,
Bu gözəl otaq sizin,
Çəmən sizin, bağ sizin.
Beş-on gün qalın burda,
Tapşırmışam boz qurda
Gətirsin yağlı toğlu.
Sizinçin çoxlu-çoxlu
Kabab bişirim gərək,
Yeyək burda duz-çörək.
Olaq yaxın dost-qardaş,
Olaq mehriban sirdaş.
Narahat olmayın.
Uzanın yatın
Mən sizə saz çalım,
Yuxuya batın!

*(Bir az sonra Div soruşur.)*

**Div:** Kim yatıb, kim oyaqdır?

**Cırtdan:** Hamı yatıb, mən oyağam!

**Div:** Saz çalıram şirin-şirin,
Yuxuya dal dərin-dərin.

**Cırtdan:** Ay div baba, bir Cırtdanam,
Pis öyrədib məni anam.
Mən qayğanaq yeməyincə
Yuxu tutmaz məni gecə.

**Div:** Al qayğanağı ye, yat!

**Cırtdan:** Bu qayğanaq olub boyat,
Qızdırmasan onu əgər,
Cırtdan yeyər xəstələnər.

**Div:** Yaxşı, yaxşı, bir az dayan,
Xörək qızar gələr... Cırtdan,
Görək sonra sözün nədir
Cırtdan deyil, bu fitnədir.

*(Qayğanagı yeniden Cırtdana uzadır.)*

Al qayğanaq qızdı, qoçaq,
Ye, yat, oyaq qalma ancaq.

*(Cırtdan yeyir, uzanır. Div saz çalır.)*

**Div:** Kim yatıb, kim oyaqdır?

**Cırtdan:** Hamı yatıb, mən oyağam!

**Div:** Qayğanaq da verdim sənə
İndi sözün nədir mənə?..

**Cırtdan:** Ay div baba, bir Cırtdanam,
Pis öyrədib məni anam.
Gətirməsən xəlbirlə su,
Gözlərimə getməz yuxu.

**Div:** Su da gətirərəm xəlbirlə, qoçaq,
Təki sən yuxuya batasan ancaq.

*(Div çıxır.)*

**Cırtdan:** Gör heç ağıl ummaq olur bu Divdən,
Xəlbirdə su qalar... keyin biri key.
Xəlbiri bulaqda doldurca hey
Su axıb gedəcək... ay yaramaz div,
Başına uçaydı bu sehirli ev.
Gedim uşaqları oyadım, qaçaq,
Yoxsa tutar bizi yeyər bu alçaq.

*(Səhnəcikdən sonra sözləri şairin, musiqisi Səid Rüstəmovun olan"Quzum" nəgməsi balaca oxucu tərəfindən səslənir.)*

Yaz gəlib, coşur sular,
Çiçəklənib arzular.
Yayılıb çölə, düzə
Körpə-körpə quzular.

Nəq:
Quzum gəl, ay quzum, gəl,
Ay mənim yalquzum, gəl.

Sənin zərif boynuna
Zınqırovlar düzüm, gəl.

Mən gəzirəm çəməndə,
Yoldaş ol mənə sən də.
Duyaq yazın ətrini
Nərgizdə, yasəməndə.

**I Aparıcı :** Mir Mehdi Seyidzadənin bütün əsərləri, xüsusilə onun "Həyat eşqi" adlı kitabında toplanmış şeir və təmsilləri əmək mövzusunda yazılmışdır. Şair kiçik oxucularına başa salmağa çalışır ki, əmək insanı sağlamlaşdırır, insanda sağlam ruh yaradır. Şair əməyi, zəhmətkeşliyi ön plana çəkir. "Toxucu qız" şeirində bunu biz aydın şəkildə görürük.

Var olsun yorulmaq bilməyən əlin,
İpəyin sovqatı olub hər elin.
Geyinir,bəzənir toyda qız-gəlin,
Sənin toxuduğun incə ipəkdən.

Şair uşaqları əməyə alışdırmaqla yanaşı, onları sağlamlıqlarını qorumağı da tapşırır. Balacaları səliqə-sahmana, təmizliyə riayət etməyi öyrədir.

*(Musiqisi Midhəd Əhmədovun, sözləri şairə məxsus olan: "Təmizlik" nəğməsi balaca oxucunun ifasında dinlənilir.)*

Yoldaşına bir uşaq,
Söylədi: - güzgüyə bax!
Kirlidir yanaqların,
Əllərin barmaqların.
Al, bu sabun, bu da su,
Əl-üzünü təmiz yu.

Kir tutmasın dərini,
Təmizlə dişlərini.
Uşaq eşitdi bunu.
Tez götürdü sabunu.
Yuyundu təmiz-təmiz,
Oldu kirsiz, ləkəsiz.

**II Aparıcı :** Şairin təmsilləri həmişə tərbiyəvi məqsəd daşıyır. Müəllif qarşısına məqsəd qoyur ki, oxucunu ayıq salsın, hər cür çətin məqamdan çıxmaq yolunu ona göstərsin. "Tülkü və cücə" təmsilində cücə öz ağlı, tədbiri sayəsində hiyləgər tülkünün əlindən qurtulur. "Qaranquş və bayquş", "Darğa-qarğa", "Lovğa çiraq", "Yarasa və Pərvanə", "Aslan və Ceyran", "Ədabaz Meymun", "Canavar və tülkü" təmsillərində isə insanların xislətində ola biləcək mənfi cəhətlər tənqid olunur.

*(Kiçik yaş qrup oxucuların ifasında "Qaranquş və bayquş" təmsilindən dialoq şəklində bir parça söylənir. Daha sonra musiqisi Soltan Hacıbəyova sözləri şairə məxsus olan "Oynaq topum" kiçik yaşlı oxucunun ifasında dinlənilir.)*

Oynaq topum, oynaq topum,
Əlvan rəngli, qıvraq topum.
Atdım, tutdum, düşdün yerə,
Qaçdın getdin birdən-birə.

Oynaq topum, düşdün yerə,
Döndün saga, döndün sola.
Uzaqlaşma məndən, topum,
Qaçma dayan, səni tutum.

**I Aparıcı:** Mir Mehdi Seyidzadə üçün sevgi-məhəbbət gözəllik, ülvilik, ucalıq deməkdir. Şairin qəzəllərində bu mövzu əsas yerlərdən birini tutur. Müəllif öz sevdiyini ən nəcib, ən ali duyğular oyadan həyat nemətlərinə oxşadır. Şairin qəzəllərində hüsn, gözəllik, işvə-naz, ülvilik dünyası, güllər, çiçəklər, sevgi-vusal həsrəti qəlb oxşayır. Doğrudan da, əziz dost, sən əgər sabaha inamla, etiqadla baxırsansa, onda sənin qəlbin ən nəcib hisslərlə döyünəcək. Bu vaxt ürəyindən keçəcək:

Sevdiyin olsun ömür yoldaşı dünyada sənə,
Bədəsildən uzaq ol, uyma vəfasız gözələ,
Yazdığım hər qəzəlin fikrinə, mənasina bax,
Ey rəqibim, demə Mir Mehdi uyubdur qəzələ.

**II Aparıcı :** Şair qəzəllərində bu günün sevən, yaradan gənclərində gözəl əxlaqı keyfiyyətləri görmək istəyir. O, gənclərə öz qəzəllərində öyüd-nəsihət verir, nadanlara qoşulmamağa çağırır.

**I Aparıcı :** Mir Mehdi Seyidzadənin əsələri uzun illərdir dərs kitablarına, eləcə də Gənc Tamaşaçılar Teatrının repertuarına daxil olub.

**II Aparıcı:** Azərbaycan ədəbiyyatının xüsusən, uşaq ədəbiyyatının inkişafındakı xidmətlərinə görə Mir Mehdi Seyidzadə ordenlər, medallar, fəxri fərmanlarla təltif edilmiş, Əməkdar İncəsənət Xadimi adı almışdır. İllər ötsə də hər dəfə uşaq ədəbiyyatından söz düşəndə uşaqların da, böyüklərin də sevimlisi Mir Mehdi Seyidzadə hörmətlə anılacaq, yada düşəcək. Onun şeirləri hələ uzun illər körpələrin dillərində əzbər qalacaqdır.

## Ədəbiyyat siyahısı


Əsərləri:

1. Seçilmiş əsərləri. 2 C-də.C.1 - B.: Azərnəşr, 1966.- 363 s.
2. Seçilmiş əsərləri. 2 C-də.C.2 - B.: Azərnəşr, 1966.- 363 s.
3. Seçilmiş əsərləri.- Təkrar nəşr.- B.: Avrasiya Press, 2006.- 320s.
4. Ağacların şikayəti: (Şerlər, təmsillər, poemalar). – B.: Gənclik, 1987.- 86 s.
5. Xatırlayarsan məni. – B.: Gənclik, 1978.-260 s.

Haqqında:

1. Əliyev M. Xatırla məni: Mehdi Seyidzadənin 70 illiyi münasibətilə // Ədəbiyyat və incəsənət.- 1977.- 12 noyab.- S. 6.
2. Əzizov Ə. Gənc nəslin xidmətində // Bakı.- 1972.- 10 apr.- S.4.
3. Qasımzadə Q. Uşaqların qocaman tərbiyəçisi: (Mehdi Seyidzadənin yaradıcılığı haqqında) // Ədəbiyyat və incəsənət.-1972.-18 mart.- S. 10.
4. Məmmədov K. "Unudulmaz xatirələr kimlərdən danışır: (Mehdi Seyidzadənin eyni adlı kitabı haqqında) // Azərbaycan müəllimi.- 1976.- 19 mart. - S.-3.
5. Yusifli V. Ağanı unutmaq olarmı? (Mir Mehdi Seyidzadə haqqında) // Panorama.- 1998.- 22 yanv.-S.6.

Tərcümələri:

1. Xəyyam Ö.Rübailər / Tərc.ed. M.M.Seyidzadə.-B.: Lider, 2004.- 102 s.

İnternetdə:

www.educult.az
www.veengle.com

**Mir Mehdi Seyidzadənin şeirlərinə bəstələnmiş mahnılar:**

*Məktəbəqədər yaşlı uşaqlar üçün:*

1. Bağçamız: mahnı / söz: Mir Mehdi Seyidzadə; mus: Səid Rüstəmov // Uşaq mahnıları. I kitab: məktəbəqədər yaşlı uşaqalr üçün.- B.: Min bir mahnı MMC, 2005.- S.18.
2. Qar: mahnı / söz: Mir Mehdi Seyidzadə; mus: Şəfiqə Axundova // Uşaq mahnıları. I kitab: məktəbəqədər yaşlı uşaqalr üçün.- B.: Min bir mahnı MMC, 2005.- S.104.
3. Oynaq topum: mahnı / söz: Mir Mehdi Seyidzadə; mus: Soltan Hacıbəyov // Uşaq mahnıları. I kitab: məktəbəqədər yaşlı uşaqalr üçün.- B.: Min bir mahnı MMC, 2005.- S.146.
4. Pilotlar: mahnı / söz: Mir Mehdi Seyidzadə; mus: Üzeyir Hacıbəyov // Uşaq mahnıları. I kitab: məktəbəqədər yaşlı uşaqalr üçün.- B.: Min bir mahnı MMC, 2005.- S.152.

5. Pişiyim: mahnı / söz: Mir Mehdi Seyidzadə; mus: Məmməd Nəsirbəyov // Uşaq mahnıları. I kitab: məktəbəqədər yaşlı uşaqalr üçün.- B.: Min bir mahnı MMC, 2005.- S.154.

*Kiçik yaşlı uşaqlar üçün:*

1. Birinci qar: mahnı / söz: Mir Mehdi Seyidzadə; mus: Səid Rüstəmov // Uşaq mahnıları. II kitab: kiçik yaşlı uşaqalr üçün.- B.: Min bir mahnı MMC, 2005.- S.42.
2. Bulaq: mahnı / söz: Mir Mehdi Seyidzadə; mus: Səid Rüstəmov // Uşaq mahnıları. II kitab: kiçik yaşlı uşaqalr üçün.- B.: Min bir mahnı MMC, 2005.- S.52.
3. Dağlar: mahnı / söz: Mir Mehdi Seyidzadə; mus: Səid Rüstəmov // Uşaq mahnıları. II kitab: kiçik yaşlı uşaqalr üçün.- B.: Min bir mahnı MMC, 2005.- S.56.
4. Göyərçinim: mahnı / söz: Mir Mehdi Seyidzadə; mus: Ağabacı Rzayeva // Uşaq mahnıları. II kitab: kiçik yaşlı uşaqalr üçün.- B.: Min bir mahnı MMC, 2005.- S.82.
5. Qar topu: mahnı / söz: Mir Mehdi Seyidzadə; mus: Səid Rüstəmov // Uşaq mahnıları. II kitab: kiçik yaşlı uşaqalr üçün.- B.: Min bir mahnı MMC, 2005.- S.94.
6. Qayıqda: mahnı / söz: Mir Mehdi Seyidzadə; mus: Səid Rüstəmov // Uşaq mahnıları. II kitab: kiçik yaşlı uşaqalr üçün.- B.: Min bir mahnı MMC, 2005.- S.96.
7. Qızıl payız: mahnı / söz: Mir Mehdi Seyidzadə; mus: Səid Rüstəmov // Uşaq mahnıları. II kitab: kiçik yaşlı uşaqalr üçün.- B.: Min bir mahnı MMC, 2005.- S.110.
8. Mahnı və rəqs: mahnı / söz: Mir Mehdi Seyidzadə; mus: Cahangir Cahangirov // Uşaq mahnıları. II kitab:

kiçik yaşlı uşaqalr üçün.- B.: Min bir mahnı MMC, 2005.- S.122.

9. Maral: mahnı / söz: Mir Mehdi Seyidzadə; mus: Səid Rüstəmov // Uşaq mahnıları. II kitab: kiçik yaşlı uşaqalr üçün.- B.: Min bir mahnı MMC, 2005.- S.124.
10. Sarmaşıq: mahnı / söz: Mir Mehdi Seyidzadə; mus: Səid Rüstəmov // Uşaq mahnıları. II kitab: kiçik yaşlı uşaqalr üçün.- B.: Min bir mahnı MMC, 2005.- S.150.
11. Şəhərimiz: mahnı / söz: Mir Mehdi Seyidzadə; mus: Səid Rüstəmov // Uşaq mahnıları. II kitab: kiçik yaşlı uşaqalr üçün.- B.: Min bir mahnı MMC, 2005.- S.166.
12. Təmizlik: mahnı / söz: Mir Mehdi Seyidzadə; mus: Midhəd Əhmədov // Uşaq mahnıları. II kitab: kiçik yaşlı uşaqalr üçün.- B.: Min bir mahnı MMC, 2005.- S.174.
13. Uçun, quşlar: mahnı / söz: Mir Mehdi Seyidzadə; mus: Səid Rüstəmov // Uşaq mahnıları. II kitab: kiçik yaşlı uşaqalr üçün.- B.: Min bir mahnı MMC, 2005.- S.178.
14. Yolka nəğməsi: mahnı / söz: Mir Mehdi Seyidzadə; mus: Soltan Hacıbəyov // Uşaq mahnıları. II kitab: kiçik yaşlı uşaqalr üçün.- B.: Min bir mahnı MMC, 2005.- S.52.

*Orta və yuxarı yaşlı uşaqlar üçün:*

1. Bayram günü: mahnı / söz: Mir Mehdi Seyidzadə; mus: Üzeyir Hacıbəyov // Uşaq mahnıları. III kitab: orta və yuxarı yaşlı uşaqalr üçün.- B.: Min bir mahnı MMC, 2005.- S.34.

2. Bənövşə: mahnı / söz: Mir Mehdi Seyidzadə; mus: Soltan Hacıbəyov // Uşaq mahnıları. III kitab: orta və yuxarı yaşlı uşaqalr üçün.- B.: Min bir mahnı MMC, 2005.- S.38.
3. Göydə üzən gəmi: mahnı / söz: Mir Mehdi Seyidzadə; mus: Səid Rüstəmov // Uşaq mahnıları. III kitab: orta və yuxarı yaşlı uşaqalr üçün.- B.: Min bir mahnı MMC, 2005.- S.76.
4. Gözəl Quba: mahnı / söz: Mir Mehdi Seyidzadə; mus: Səid Rüstəmov // Uşaq mahnıları. III kitab: orta və yuxarı yaşlı uşaqalr üçün.- B.: Min bir mahnı MMC, 2005.- S.78.
5. Gün, çıx! : mahnı / söz: Mir Mehdi Seyidzadə; mus: Səid Rüstəmov // Uşaq mahnıları. III kitab: orta və yuxarı yaşlı uşaqalr üçün.- B.: Min bir mahnı MMC, 2005.- S.82.
6. Xəzər: mahnı / söz: Mir Mehdi Seyidzadə; mus: Səid Rüstəmov // Uşaq mahnıları. III kitab: orta və yuxarı yaşlı uşaqalr üçün.- B.: Min bir mahnı MMC, 2005.- S.88.
7. Kəpənəyim: mahnı / söz: Mir Mehdi Seyidzadə; mus: Səid Rüstəmov // Uşaq mahnıları. III kitab: orta və yuxarı yaşlı uşaqalr üçün.- B.: Min bir mahnı MMC, 2005.- S.96.
8. Quzum: mahnı / söz: Mir Mehdi Seyidzadə; mus: Səid Rüstəmov // Uşaq mahnıları. III kitab: orta və yuxarı yaşlı uşaqalr üçün.- B.: Min bir mahnı MMC, 2005.- S.110.
9. May: mahnı / söz: Mir Mehdi Seyidzadə; mus: Şəfiqə Axundova // Uşaq mahnıları. III kitab: orta və yuxarı

yaşlı uşaqalr üçün.- B.: Min bir mahnı MMC, 2005.- S.116.
10. Şaxta baba: mahnı / söz: Mir Mehdi Seyidzadə; mus: Səid Rüstəmov // Uşaq mahnıları. III kitab: orta və yuxarı yaşlı uşaqalr üçün.- B.: Min bir mahnı MMC, 2005.- S.156.
11. Şəhərimiz: mahnı / söz: Mir Mehdi Seyidzadə; mus: Səid Rüstəmov // Uşaq mahnıları. III kitab: orta və yuxarı yaşlı uşaqalr üçün.- B.: Min bir mahnı MMC, 2005.- S.158.

# Böyükləri düşündürən, uşaqları sevindirən
# Mir Mehdi Seyidzadə

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Ruhiyyə Məmmədli**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**